KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 1 (17) 2023

Solmaz Azay qızı Sadıqova
*Bakı Dövlət Universiteti*
*İnformasiya və sənəd menecmenti fakültəsi*
*Sənəd menecmenti kafedrasının dosenti,*
*tarix üzrə fəlsəfə doktoru*
solmaz_bdu@mail.ru

Ləman İlham qızı Eyyubova
*İnformasiya və sənəd menecmenti fakültəsi*
*Sənəd menecmenti kafedrasının magistrantı*
lemaneyyubova9 @gmail.com

# KİTABXANA SAYTLARININ YARADILMASININ ƏSAS MEYARLARI

**Xülasə:** *Məqalədə müasir kitabxana saytlarının yaradılmasında əsas diqqət etməli olduğumuz məqamlar, onların struktur quruluşu və tələb olunan meyarlar işıqlandırılmışdır. Eyni zamanda Kitabxana saytının statistik göstəricilər sisteminin formalaşmasına yanaşmalar izah olunur ki, bu da onun daxili dinamikasını izləməyə və onu digər saytların göstəriciləri ilə müqayisə etməyə imkan verir. Kitabxana veb-analitikasının inkişafı və kitabxana saytlarının fəaliyyətinin hərtərəfli qiymətləndirilməsi üçün tədbirlər təklif olunur.*

**Açar sözlər:** *kitabxana; veb sayt; istifadəçi; naviqasiya; informasiya; meyar.*

Solmaz Azay gizi Sadiqova
Leman Ilham gizi Eyyubova

## Basic criteria for creating library vebsites

**Abstract:** *The article highlights the main points that should be paid attention to when creating modern library sites, their structure and the required criteria. At the same time, approaches to the formation of a system of statistical indicators of the Library's website are explained, which makes it possible to track its internal dynamics and compare it with the indicators of other sites. Actions are proposed for the development of library veb analytics and a comprehensive assessment of the effectiveness of library vebsites.*

**Key words:** *library; website; user; navigation; information; criterion.*

Солмаз Азай кызы Садыгова
Ляман Ильхам кызы Эюбова

## Основные критерии создания сайтов библиотек

**Резюме:** *В статье выделены основные моменты, на которые следует обратить внимание при создании современных библиотечных сайтов, их структура и требуемые критерии. При этом разъясняются подходы к формированию системы статистических показателей сайта Библиотеки, что позволяет отслеживать его внутреннюю динамику и*

*сравнивать с показателями других сайтов. Предлагаются действия по развитию библиотечной веб-аналитики и всесторонней оценке эффективности библиотечных веб-сайтов.*

***Ключевые слова:*** *библиотека; веб-сайт; пользователь; навигация; информация; критерий.*

Kitabxana veb saytı, kitabxanaların İnternet vasitəsilə virtual xidmətlərin həyata keçirməsinə imkan yaradan veb səhifələrdən ibarət olan saytlardır. Bu saytlar vasitəsilə istifadəçilər elektron kitabları, jurnalları və məqalələri, müxtəlif nəşr nümunələrini və başqa materialları rahatlıqla istifadə edə bilirlər. İlk kitabxana saytları, İnternetin kütlə tərəfindən istifadə edildiyi 1990-cı illərdə yaranmağa başlamışdır. Lakin o zamanlarda İnternetin əlçatarlığı və texnoloji imkanların məhdudluğu baxımından kitabxana saytları sadə və məhdud səhifələrdən ibarət olmuşdur. Buna görə də ilk kitabxana saytları yalnız kitabların biblioqrafik siyahısından təşkil olmuşdur.

*"Qloballaşan dünya istifadəçilərin informasiya ehtiyaclarının artması və yeni ödəniş vasitələrinin yaranması ilə səciyyələnir. Dünya miqyasında aparılan tədqiqatların nəticələri göstərir ki, informasiya resursları artıqca akademik istifadəçilərin informasiya ehtiyacları hələ də adekvat şəkildə ödənilmir. Hesab edirik ki, bu vəziyyətin obyektiv səbəblərindən biri tələbin həmişə təklifi üstələməsidir. Bu real vəziyyətin həllində kitabxana saytları əsas rol oynayır.*

*Bu gün kitabxanalarda vəziyyət tamama başqadır. Kağız kitablar nə qədər estetik və mənəvi cəhətdən zövqlü olsa da, bu gün oxucular İnternetdə oxumağa və axtarışa üstünlük verirlər" [1].*

İstinad etdiyimiz məqalədə də qeyd edildiyi kimi, kitabla ünsiyyət, ənənvi mütaliə olduqca insan zehninə müsbət təsir edir. Buna baxmayaraq, ənənəvi mütaliə üçün kitabxanaya getmək, üzv yazılmaq, mövcud olan ədəbiyyatın başqa oxucuda olması və ya ədəbiyyatın istifadəyə yararlı olmaması kimi səbəblərədən oxucular elektron kitabxanalara üz tutur. Kitabxananın saytında yerləşdirilmiş elektron resursların istifadəsinin limitsiz olması oxucunun ədəbiyyatı əldə etməsi üçün ənənəvi kitabxanalardakı kimi günlərlə gözləməsinin qarşısını alır. "Müəllif hüquqları haqqında" Qanunun tələblərinə riayət etmək şərtilə, oxucular mövcud ədəbiyyatın elektron variantından rahatlıqla yararlana bilərlər.

Əsasən, müasir kitabxana veb saytları kitabların onlayn kataloqu, oxucu hesabları, kitbların onlayn sifarişi, İnternet vasitəsilə kitabların alışı, kitabların elektron variantları və s. kimi xidmətlər təklif edirlər. Kitabxana veb saytı müasir dövrdə kitabxananın virtual platformada ən yaxşı təmsilçisi hesab olunur. Bu saytlar sadə interfeysə malik olmalıdır və bir növ istifadəçinin dostu olmalıdır. Əksər kitabxanalar ictimaiyyət üçün açıq olduğundan istifadəçilər tərəfindən asanlıqla axtarış imkanlarına və resusrların əldə edilməsinə şərait





yaradır. Lakin bəzi kitabxanalar onlardan istifadə üçün abunəlik tələbini irəli sürür. Yəni istifadəçi kitabxanaya abunə olmadan onun resurslarından istifadə edə bilmir. Yalnız abunə olduqdan sonra kitabxananın xidmətlərindən istifadə etmək hüququna malik olur.

Kitabxana saytları əsasən aşağıdakı vacib elementlərdən təşkil olunur:

1. Ana səhifə: Kitabxananın əsas səhifəsi olmaqla, kitabxana haqqında ilkin məlumatları, cari vəziyyəti özündə əks etdirir. İstifadəçi sayta daxil olan kimi ana səhifədə yerləşdirilmiş məlumatlarala tanış olur. Burada kitabxana xidmətləri, yeni kitablar, ən son tədbirlər və s. kimi məlumatlar öz əksini tapır.
2. Kitabxana kataloqu: Bu kataloq kitabxananın fondunu özündə əks etdir və bütün resusrların siyahısını istifadəçiyə təqdim edir.
3. Axtarış paneli: Kitabxana saytının kataloqunda lazimi informsiyanın axtarışı üçün nəzərdə tutulan axtarış paneli və ya naviqasiya menyusudur. Burada axtarışı asanlaşdıran elementlər mövcuddur ki, bunlara misal olaraq, müəllif üzrə axtarış, sərlövhə üzrə axtarış, nəşr məlumatlarına görə, kitab və ya məqalə üzrə axtarış və s. göstərə bilərik.
4. Kitabxana xidmətləri: Əsasən, kitabxananın ana səhifəsində qeyd olunur. Bu xidmətlərə sənədlərin elektron sifarişi və çatdırılması, kitablar haqqında məlumat, kitabxanaya abunə yazılmaq və s. kimi virtual xidmətlər daxildir.
5. Əlaqə hissəsi: İstifadəçilərin kitabxanaya müraciət edə biləcəyi fiziki məkan və ya onlayn İnternet ünvanı, bu haqda video təlimatlar, dəstək xidmətlər elektron poçt və mövcud olan digər sosial media hesabları haqqında məlumatlar qeyd edilir.
6. İstifadəçi hesabı: İstifadəçilər üçün nəzərdə tutulmuş, şəxsi hesab məlumatları, sifariş tarixi və digər müvafiq məlumatların qeyd edildiyi hissə.

Kitbxana saytlarının necə hazırlanması və yaxud mükəmməl kitabxana saytları ilə bağlı vahid meyarlar olmasa da, rusiyalı alim, tədqiqatçı V.Stepanovun təklif etdiyi meyaraları nəzərdən keçirək:

- *informasiya məzmununun dərinliyi;*
- *onun yenilənməsinin səmərəliliyi;*
- *informasiya məzmununun sabitliyi;*
- *istifadəçilər üçün səhifələrin mövcudluğu;*
- *naviqasiya rahatlığı [4].*

İnformasiya məzmunun dərinliyi qiymətləndirilərkən kitabxananın metodiki və əlaqələndirici funksiyalarının həyata keçirilməsini təmin edən və mütəxəssisləri maraqlandıran üç əsas məlumat buloku:kitabxananın fəaliyyəti haqqında məlumat; kitabxanaçılıq üzrə məlumat materialları və metodik tövsiyələr və məsləhətlər müəyyənləşdirilmişdir.

Kitabxana saytlarını yenilənmə sürəti kimi kriteriyaya görə təhlil etsək, qeyd etməliyik ki, əksər saytlarda son yeniləmənin tarixi göstərilmir, bu da

kitabxana saytlarında informasiyanın mütəmadi olaraq yenilənməsi məsələsi ilə bağlı suallar doğurur.

İnformasiya məzmununun sabitliyi, ilk növbədə, arxivlərin formalaşdırılması ilə təmin edilir. Əksər kitabxana saytlarında xəbərlər, konfrans materialları və digər peşəkar tədbirlər arxiv olunaraq saxlanılmaqdadır. Bu, əlbəttə ki, serverin məlumat gücünü, tutumunu dəsdəkləməlidir. Bununla belə, arxivləşdirilmiş xəbərlər, məlumatlar çox vaxt müvəqqəti xarakter daşıyır, ona görə də onları saxlamaq heç də həmişə məqsədəuyğun hesab edilmir.

Saytlarda naviqasiyanın rahatlığını qiymətləndirərək qeyd etməliyik ki, saytın ardıcıl və sistemli axtarış qabiliyyətinə malik olması ən əsas nüansdır. Kitabxana veb saytlarında istər dünya təcrübəsində, istərsə də Azərbaycan təcrübəsində müxtəlif elementlər üzrə axtarış mövcuddur. Bu axtarış imkanları istifadəçiyə lazım olan məlumatın tez bir zamanda əldə edilməsinə şərait yaradır. Bununla yanaşı, saytın naviqasiyası tapılmış nəticənin filtirlənməsi üçün də müəyyən alətləri tədqiqatçının istifadəsinə verir.

Müasir informasiya cəmiyyətində kitabxanaların və informasiya müəssisələrinin saytlarında elektron informasiya resurslarından optimal istifadənin qarşısında duran ən mühüm vəzifə informasiyanın idarəçiliyinin düzgün və məqsədyönlü şəkildə həyata keçirilməsidir.

*Bütövlükdə bütün dünyada kitabxana saytlarında informasiya resurslarının rolunu qiymətləndirərkən 5 əsas məqama diqqət yetirmək lazımdır:*

*Dəqiqlik - Elektron saytda biblioqrafik məlumatın dəqiqliyi. Bu saytdakı məlumatların redaktor və ya ekspert tərəfindən təhlil edilərək mətnlərdə və digər informasiya daşıyıcılarında səhvlərin və çatışmazlıqların aradan qaldırılması.*

*Səlahiyyət - Kitabxananın veb-saytı kommersiya, təhsil, hərbi və ya inzibati məqsədlər üçündür; saytın məqsədi və vəzifələri, sayt administratorunun olması və saytda məlumatlara cavabdeh olan şəxsin olması kimi xüsusiyyətlər.*

*Obyektivlik - Elektron saytda biblioqrafik məlumat obyektivdir. Biblioqrafik məlumatın təqdimatına əlavə şərhlərin və ya təsir cəhdlərinin olub-olmaması, səhifənin məzmunu və s.*

*Məzmun - Elektron veb-sayt yaratmaq üçün bütün kitabxanaların ümumi məqsədinə əsaslanaraq, məlumat istifadəçinin məqsədlərinə uyğun olmalıdır, məsələn, istifadəçinin axtardığı məlumatın faydalı olub-olmaması və istifadəçinin əldə etdiyi məlumatın qənaətbəxş olub-olmaması.*

*Uyğunluq - yaradılan kitabxana saytlarında səhifənin son yeniləməsi haqqında məlumatın olub-olmaması, səhifədə yeni biblioqrafik məlumat bazalarına keçidlərin aktiv olub-olmadığını və açılmış biblioqrafik mənbələrə keçidlərin müvafiq olub-olmadığını göstərir [1].*





*Mütəxəssislərin fikrincə, bu maddələrə əlavə olaraq hər bir kitabxana veb saytı istifadəçilər üçün aşağıdakı özəlliklərə də malik olmalıdır:*

- *Kitabxana haqqında məlumat*
- *İnternetdə seçilmiş mənbələrə keçid*
- *İnteraktiv e-poçt*
- *Kitabxana ünvanı*
- *Kitabxananın yerləşdiyi ərazi haqqında məlumat*
- *Səhifənin sonuncu dəfə yenilənməsi haqqında məlumat*
- *Kitabxana kataloquna keçid*
- *Digər kitabxanaların onlayn kataloqlarına keçid*
- *Yerli hökümət və ictimai qurumlarla əlaqə imkanı*
- *İnternet axtarış mühərriklərinə qoşulma*
- *Kitabxana və onun xidmətləri haqqında məlumat*
- *Şəxsi kolleksiyalara keçid, əgər varsa*
- *Ziyarətçi sayğacı*
- *Kitabxananın İnternetə çıxışı barədə məlumat*
- *Kitabxana qaydaları*
- *Kitabxananın missiyası haqqında məlumat*
- *Kitabxana fəaliyyətinin illik hesabatları*
- *İstifadəçi təhsili [2].*

Bütün bu sadalanan özəlliklərə kitabxanaların hər birinin sahib olması arzuolunandır, lakin təəssüf ki, bəzi kitabxana saytları bu özəlliklərin 50%-inə belə sahib deyil. Qeyd edilən özəlliklərdə ziyarətçi sayğacı adlanan punkt saytın kontentə, burada paylaşılan resurslara, biblioqrafik informasiyalara, ümumilikdə saytın özünə nə qədər təlabat olduğunu dair fikir formalaşdırmağımıza kömək edir. Bəzən kitabxanalar istifadəçilər üçün məhsulları hazırlayır, onları saytda yerləşdirir, lakin ay, hətta il ərzində neçə baxış sayı aldığı ilə bağlı heç bir məlumata sahib olmur. Kitabxana saytında resursların yerləşdirilməsi o demək deyildir ki, bununla kifayətlənmək olar. Mütamadi olaraq, istifadəçilərin ziyarəti ilə bağlı sitatistik məlumatlar bizim yeni qərarlar qəbul etməyimizə əsas verir. Yəni əgər paylaşılan kontentin ziyarətçi sayı azdırsa, bu bizi başqa daha cəlbedici bir kontent yaratmağa sövq edir.

İstifadəçi təhsili adlanan özəlliyin dünya təcrübəsinə çox az kitabxana saytlarında rast gələ bilərik. Həqiqətən Azərbaycanda fəaliyyət göstərən kitabxana saytlarında belə bir özəlliyin olması çox təqdirəlayiq bir addım olar. Çünki kitabxananın ümumi mahiyyəti tərbiyə etmək, təhsil verməkdir. Ona görə bu funksiyanın virtual şəkildə ödənilməsi, müxtəlif sahələrlə bağlı təhsil imkanlarının saytlarda əks olunması arzuolunandır.

*Kitabxana veb saytı bir-biri ilə məntiqi bağlılığı olan veb səhifələrdən ibarətdir. Hər bir xidmət veb səhifəsi axtarılan məlumatın növünü tez tapmağa kömək kömək edən bölmələrə ayrılır. Hər bölmə xüsusi təyinatlı və identifikasiya dizaynı ilə məlumat modulunu təmsil edir. Bu istifadəçilərə hər*

*bir xidmət səhifəsində eyni yerdə eyni məlumatları tapmağa kömək edir. Əsas bölmələr aşağıdakılardan ibarətdir:*

- *Başlıq*
- *Açar sözlər*
- *Təsvir*
- *Saatlar*
- *Məkan*
- *Əlaqə*
- *İcmal*
- *Zənglə fəaliyyət*
- *Tez-tez verilən suallar*
- *Əlavə resurslar*
- *Əlaqəli xidmərlər*
- *Kateqoriyalar [3].*

Covid-19 pandemiyası şəraitində insanların karantin şəraitində yaşaması, ənənəvi xidmət növlərinin məhdudlaşaraq alternativ kimi onlayn xidmətlərin geniş istifadə olunması kitabxana xidmətlərindən də yan keçmədi. Öz oxucularına ənənəvi xidmət göstərə bilməyən kitabxanaların virtual oxucularının sayı dayanmadan artır, sənəd sifarışlərinin ardı arası kəsilmirdi. Əvvəlki dövrdə ənənəvi xidmətlərə köklənən insanların onlayn xidmətlərdən istifadəsi daha operativ və səmərəli xidmətlərə vərdiş etməsinə səbəb oldu. Bununla da post pandemiya dövründə kitabxana saytlarının ziyarətçi sayı 2-3 dəfə artmışdı. Bu da informasiya cəmiyyətində yeni təcrübələrin yaranmasına şərait yaradır. Öz növbəsində kitabxana saytları da bu dövrdə öz fondunun 50%-dən çoxunu elektronlaşdırmış və oxucularının istifadəsinə vermişdir.

Nəticə olaraq kitabxanaların İnternet saytlarında informasiya ehtiyatlarının əks olunması məzmun və forma baxımından sənədlərin və informasiya resurslarının çoxşaxəliliyi prinsipi baxımından zəngindir.

Qloballaşan mühitdə İnternetdə elektron kitabxanaların, elektron resursların sayı sürətli şəkildə artır. Bu səbəbdən də keyfiyyətli saytların yaradılması və elektron informasiya resurslarının səmərəli istifadəsi üçün dünya təcrübəsində vahid meyarların formalaşdırılması günümüzün aktual məsələsi olmalıdır.

## ƏDƏBİYYAT

1. *Ismayilov, N., & Khalafova, S. Library Sites That Provide Information to Users (Based on Domestic and Foreign Library Experience). – Grani, 2022. – №25 (2). – p. 23-24.*
2. *Nəbiyeva, N. Kitabxana saytlarının formatı və məzmun təhlili. – Bakı: Mütərcim. Kitabxanaşünaslıq və biblioqrafiya: elmi nəzəri, metodik və praktik jurnal, 2019. – № 2 (44). – S. 64-65.*
3. *Rennick, B. Library Services Navigation: Improving the Online User Experience // Information Technology and Libraries, 2019. – 38 (1). – p. 14-26.*
4. *Тикунова, И.П. Библиотечные сайты – источник профессиональной информации [Текст] // Информационный бюллетень Российской библиотечной ассоциации. – 2004. – № 32. – С. 43-45.*